# Tahirbəyovun "uşaqları"

Doxsanlar idi. Təlatümlü doxsanlar. Azərbaycanın ən nüfuzlu ali məktəblərindən birinə qəbul olunmuşdum. Rayon mərkəzinə gedəndə dünyanın bəxtəvəri olan əyalət uşağı və o dövrün APİ Axundovu. Və üstəgəl qarın dolusu yeməyə çörək tapılmayan o oyanış illəri. İnstituta ayaq basanda ilk ağlıma gələn "oturmuşdum kənddə, mənim burada nə işim var idi" - düşüncəsi oldu. Günlər keçdi, həftələrə dönüşdü. Koridorda ağ kepkalı, hardasa idman tərzi geyimi ilə gəzən müəllimin rektorumuz olduğunu biləndə hamımız duruxduq. Bizim fikrimizcə, rektor kostyumda, yaxası qalstuklu, sifətindən qaşqabaq yağan biri olmalı idi. Yox, Bayram Tahirbəyov elə birisi deyildi. Elə bil bizim içimizdən biri idi. İnstitutda "şirinlik", yəni rüşvət işə keçmədiyini öyrənəndə mənim kimi iki cırılmış çəkmədən birini yığıb geyinən kasıb balaları çox sevindi. Sözsüz ki, heyfislənənlər də oldu. Biz çox xoşbəxt idik. Rektor bizim öz adamımız idi.

Sonra müstəqillik uğrunda mübarizə başladı. Təbii ki, tələbə hərəkatı da bu mübarizədə müstəsna rol oynayırdı. İnstitutların tələbələri bir birlərinə xəbər göndərib küçələrə axışırdı. Çox mürəkkəb zaman idi. İndiki kimi yadımdadı. Payız idi. Xəbər gəldi ki, çıxmalıyıq. Hamı oradadı. Meydanda. Auditoriyalardan koridora çıxdıq. Bayram müəllim koridorda dayanmışdı. Biz də onunla üzbəüz dayanıb bizə yol verməsini gözləyirdik. Diqqətlə baxdı. Sonra kənara çəkilib "gedin-dedi" - amma ehtiyatlı olun, özünüzü qoruyun - dedi. O guya duruşu ilə icazə verməyib, gözləri ilə "gedin" - dediyi həmin gün indiki kimi yadımdadı.

Bayram müəllim tələbə rektoru idi. Öz tələbələrinin haqqını müdafiə etdiyi üçün, onların da cəmiyyətin həyatında baş verənlərdə fəal iştirak etmək kimi bir vəzifəsi olduğunu qəbul edib bütün bunlara şərait yaratdığı üçün "yuxarıdan" çox sıxışdırılırdı. Adam çox davam edə bilmədi. Ya mütləq şəkildə tələbələrinə qadağa qoyub onlara bu hərəkatda iştirak etməyə qadağa qoymalı idi, ya da...

Bayram müəllim ikinci yolu seçdi. Və nə yaxşı da ki seçdi. Şərəf elə bil zənginlikdi ki, onu satın ala bilməzsən.

Bayram müəllimin qayğısını hər yerdə hiss edirdik. İnstitutda da, qaldığımız tələbə yataqxanasında da. Əsl tələbə rektoru idi.

Bu günlərdə vəfat etdiyini eşitdim. Məzarı nurla dolsun, işıq Adam. Sən hər zaman qəlbimizdəsən. Sənin kimi insanlar unudulmur. Biz də səni unutmayacağıq, Adam.

**Nürəngiz Bağırova**